*S.Şahverdiyeva. Camal ağa Dilbazi dünyasına bir nəzər*
*// Əlyazmalar yanmır, 2023, №1 (16), s. 51-56.*

UOT: 82-1.512.162

**Sevinc Şahverdiyeva**
*"Elin Səsi" milli-mənəvi dəyərlərimizin qorunması İctimai Birliyi*
*"Təhsil və elm işləri üzrə" departamenti*
*e-mail: sahverdiyevasevinc68@gmail.com*

# CAMAL AĞA DİLBAZİ DÜNYASINA BİR NƏZƏR

**Xülasə**

Məşhur Dilbazilər əsilzadə soyunun parlaq təmsilçilərindən olan Camal ağa Dilbazi (1860-1945) Qazax qəzasının Xanlıqlar kəndinin bəylərindən Vəhidi təxəllüslü şair Hacırəhim ağanın üçüncü oğludur.

Zəmanəsinin dərin bilikli alimi, sufi şairi və ictimai xadimi olmuş Camal ağa (dini adı - Cəmaləddin) ilk təhsilini o biri qardaşları kimi atası Hacırəhim ağadan – o çağın bir maarifpərvər insanından almış, türk, ərəb və fars dillərini ilkin olaraq ondan öyrənmişdir. Atasının vəfatından sonra evlərində ulu babalarından və atasından qalma zəngin kitabxanadakı əsərləri bir-bir oxuyub öyrənmək onda bir vərdiş halını alır. Elmə, biliklərə yiyələnməyə böyük həvəsi olan Camal ağa Türkiyədə Mirhəmzə Nigarinin rəhbərlik etdiyi təhsil mərkəzində oxumuş (1889-1893), Qazağa qayıtdıqdan sonra maarifçiliklə məşğul olmağa çalışmışdır. İlk gənclik dövründən qətiyyəti, təmiz oxlaqı, məqsədyönlü xarakteri ilə seçilirdi. Camal ağa eyni zamanda "Giryan" təxəllüsü ilə sufiyanə şeirlər, xalq şeiri üslubunda oynaq qoşmalar yazırdı.

Məqalədə Camal ağa Dilbazinin dramatik həyatı, yaradıcılığı, əmlakının dəfələrlə müsadirə edilməsi və sürgündə keçirdiyi ağır günlərindən bəhs edilir.

***Açar sözlər:*** *ədəbi məclis, şair, xalq düşməni, ekspropriasiya, sürgün*

**Giriş**

*Tarix boyu yaradıcı insanlar qarşılarına çıxan maneələri inadla dəf edərək, nəyə qadir olduqlarını qətiyyətlə isbat etmişlər. Çünki yüksək və nəcib məqsədlərə çatmaq naminə çox böyük çətinliklərə əzmlə dözmək mübariz, səbatlı və tərəqqipərvər insanlara xas bir xüsusiyyətdir. Bu nöqteyi-nəzərdən Azərbaycan ədəbiyyatı tarixində xalqımızın milli ruhunu, zəkasını və irfan həyatını öz əsərlərində bariz şəkildə əks etdirən, nadanlığa, cəhalətə, bayağılığa, zülmə və təcavüzə qarşı mübarizədə qələmini süngüyə çevirən ədib və şairlərimiz kifayət qədərdir. Zehni mədəniyyət sahibləri olan bu fədakar insanlar ali ideyaların həyata keçməsi uğrunda daim qüvvələrini səfərbər etmiş, elm və mədəniyyətimizin keşiyində müsəlləh əsgər kimi durmuşlar.*

*Diqqətinizə təqdim olunan bu məqalə yuxarıda sadalanan keyfiyyətləri özündə cəm edən ustad - söz xiridarı, ədəbiyyat bilicisi, şair və ictimai xadim Camal ağa Dilbazinin keşməkeşli həyatı və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verəcək.*

## Camal ağa Dilbazinin həyat və yaradıcılığı

İnsanın zahiri quruluşu ətdən və sümükdən ibarət bir qəlibdir. Lakin daxili aləmi saysız-hesabsız əndişələrlə doludur. Bu mənada Hafiz Şirazi də insanın tərifini verərkən "bir damla qan, min bir əndişə" ifadəsini işlətmişdir.

Həqiqətən insan müvəqqəti qonaq olduğu bu dünya evi üçün nə qədər qayğı və əndişə duyur. Ruzi təlaşı, gələcək, ailə, var-dövlət və can dərdi çəkir, halbuki axirət pəncərəsindən baxanda bütün fani əndişələr "zilli-zavaldan", yəni yox olmağa məhkum kölgələrdən ibarətdir [3, s. 28]. "Məhkum kölgələr"in əsiri olmayan və dünya həyatının cazibələrinə uymayanlar isə təqvalı insanlardır.

Bəşər övladı yaradılış baxımından Allah qatında dəyərlidir. Uca Rəbbimiz heç bir insanı boşuna yaratmamışdır. Hər qulun Onun yanında xüsusi bir yeri vardır. Qula düşən ona verilən qabiliyyətlərin fərqinə varmaq, inkişaf etdirmək və Allaha yaxınlıq yolunda istifadə etməkdir. Məsələn, görmək bir qabiliyyətdir. İnsan bu qabiliyyətini Allahı təfəkkür etmək və ya gözəl, xeyirli əməllər işləmək üçün istifadə edərsə, bu onun Cənnəti qazanmağına vəsilə olar. İnsanların Allah qatındakı qiyməti haqqında Allah Rəsulu (s) belə buyurmuşdur: "İnsanlar eynilə qızıl və gümüş mədənləri kimi müxtəlif mədənlərə bənzəyirlər" [1, s. 29].

Hədisi-Şərifdə Məhəmməd peyğəmbər (s) hər insanı qiymətli bir mədənə bənzədir. Deməli, elə bir insan yoxdur ki, qiymətsiz olsun [1, s. 29]. Belə dəyərli, alicənab və yaradıcı insanların parlaq nümayəndələrindən biri də Camal ağa Dilbazidir.

Tarixin ən mürəkkəb dönəmlərində, mərhələli dövrlərində Azərbaycan xalqının taleyində çox məşhur nəsillər yaddaşlarda həkk olunmuş, xalqımızın islami, mədəni-elmi tərəqqisində müstəsna rol oynamışlar. Bu mənada Azərbaycanın dilbər guşələrindən biri sayılan Qazax mahalının Xanlıqlar kəndində təvəllüd edib ərsəyə gələn şan-şöhrət sahibi şair Camal ağa (1860-1945) Dilbazinin həyatı, ictimai-siyasi və ədəbi yaradıcılığı nəzər diqqətimizi cəlb etdi. Haqlı sual meydana çıxa bilər - kimdir Camal ağa Hacırəhim ağa oğlu Dilbazi?

...Zəmanəsinin dərin bilikli alimi, sufi şairi və ictimai xadimi olmuş Camal ağa (Cəmaləddin) Dilbazi Xanlıqlar kəndinin bəylərindən Vəhidi təxəllüslü şair Hacırəhim ağanın üçüncü oğludur. İlk təhsilini o biri qardaşları kimi atasından - o çağın bu gözüaçıq maarifpərvər insanından almış, türk, ərəb və fars dillərini ilkin olaraq ondan öyrənmişdir. Atasının vəfatından sonra evlərində ulu babalarından və atasından qalma zəngin kitabxanadakı əsərləri bir-bir oxuyub öyrənmək onda bir vərdiş halını alır. Bir şeirində "qırx il ikmalə səy etdiyini" (özünütəhsillə məşğul olduğunu) qeyd edir. Elmə, biliklərə yiyələnməyə böyük həvəsi olan Camal ağa tək özü oxuyub-öyrənməklə qalmayıb [2, s. 5], həm də Türkiyədə Mirhəmzə Nigarinin rəhbərlik etdiyi təhsil mərkəzində oxumuşdur (1889-1893). Qazağa qayıtdıqdan sonra maarifçiliklə məşğul olmağa çalışmışdır. İlk gənclik dövründən qətiyyəti, təmiz əxlaqı, məqsədyönlü xarakteri ilə seçilirdi [4, s. 137].

Bir zamanlar Avropa və rus ədəbiyyatında geniş yayılan gündəliklər, Azərbaycanda da öz müsbət təsirini göstərirdi. Sənədli nəsr nümunəsi kimi Camal ağa da bu şəxsi yazı manerasına müraciət etmiş, vaqe olan hadisə və məlumatları gündəliyində qeyd edərmiş. Əfsuslar olsun ki, gündəlik əlimizdə deyil.

Eşitdiklərini, gördüklərini gündəliyinə qeyd etməyi özünə adət edən Camal ağa eyni zamanda "Giryan" ("Ağlar" mənasında) təxəllüsü ilə atası Vəhidinin üslubunda sufiyanə şeirlər, xalq şeiri üslubunda oynaq qoşmalar yazırdı. Sonralar, daha doğrusu 1905-ci ildə yaşadığı Xanlıqlar kəndindən Qazax şəhərinə köçür, ticarətlə məşğul olur, burada ev tikdirir, həyatını ticarətlə, kirayə verdiyi mənzillərdən gələn gəlirlə və Xanlıqlardakı əkin sahələrindən, heyvandarlıq təsərrüfatından götürdüyü gəlirlə təmin edirdi [2, s. 5; 4, s. 137].

Həzrət Məhəmməd peyğəmbər (s) dünyaya ərməğan etdiyi mötəbər hədislərinin birində belə buyurmuşdur: "Elm axtaran, rəhmət axtarar. Elm arxasınca düşmək, İslamın dirəyidir və mükafatını peyğəmbərlər verərlər" [5, s. 632]. Hədisə istinadən qeyd edə bilərik ki, elmlə dinin

vəhdəti dilemması Dilbazilər nəslinin övliya və üləmaları kimi, Camal ağa Giryan üçün də əsas qanun idi. "Vətəni sevmək imandandır" [7, s. 23] müdrik kəlamı kiçikdən böyüyə Dilbazilər nəslinin əlində bir silah idi. Millət, vətən yanğısı, səmimiyyət, təvazökarlıq, İslami dəyərlərə yüksək qiymət, Allahın vəhdaniyyətinə qəlbən bağlılıq, etiqad və s. bu kimi məziyyətlər humanizm ideyaları ilə yüklənmiş Camal əfəndinin hələ uşaq ikən təfəkküründə yuva salmışdır. Allah-təalanın insanlığa bəxş etdiyi "təmiz dünya"nı hər vəchlə qoruyub saxlamaq arzusu, elm və ibadətlə bəzənmiş həyat tərzini təqvalı və iffətli yaşamaq fikri Camal ağanın qanına - südünə hopmuş idi. Ata-baba mülkləri, ölçüyə gəlməyən əkin sahələri, saysız-hesabsız mal-qara, bir sözlə var-dövlət sahibi olmaq Dilbazilər nəslinin başbilənləri kimi, bu gənc şairi də yolundan sapındırmadı, düz əqidəsindən döndərmədi.

## Camal ağa Dilbazinin təşkil etdiyi ədəbi məclis və açdığı qiraətxana və kitabxana

Azərbaycanda ədəbi məclislərin tarixi qədim əsrlərə gedib çatır. Təzkirəçilərin və şeir həvəskarlarının topladıqları məcmuələrdən aydın olur ki, hər bir dövrdə ölkənin mərkəzində saray şairləri ilə yanaşı xalqın özünün yaratdığı şairlər məclisi də olmuşdur. Həm də bu məclislər yalnız paytaxtda deyil, irili-xırdalı şəhərlərdə və qəsəbələrdə də var idi. Həmin ədəbi məclislərin, şübhəsiz ki, ədəbiyyatın inkişafına müsbət təsiri olmuşdur [6, s. 3]. Bu məkanlar bir növ ədəbiyyat məktəblərinə çevrilmişdir. Onlarca istedadlı şairlər həmin ədəbi məktəblərdə yetişmiş, ilk şeirlərini bu məclislərdə oxumuşlar [6, s. 4].

Keçən əsrdə Azərbaycanda mövcud olan məşhur ədəbi məclislər – "Divani-hikmət", "Gülüstan", "Əncümənüş-şüəra", "Fövcül-füsəha", "Beytüs-səfa", "Məcməüş-şüəra", "Məclisi-üns" və "Məclisi-fəramuşan"dan başqa, Şəki, Qazax, Ağdaş, Dərbənd, Yerevan, Təbriz, Ərdəbil kimi şəhərlərdə şair və ariflərin tez-tez ədəbi yığıncaqları olmuşdur. Həmçinin, Qazaxda Kazım ağa Salik, Hacı Rəhim ağa Vəhidi, İskəndər ağa Şair, Abbas ağa Nazir, Mustafa ağa Nasir və başqaları yaşadıqları şəhərlərdə fəaliyyət göstərən ədəbi "dərnək"lərin iştirakçıları olmuşlar.

Bu kiçik dərnəklər XX əsrin onuncu illərinə kimi davam etmişdir [6, s. 430].

Xalqın həyat tərzini, şüurunu və mənəvi dünyasını təmsil edən ədəbi ocaqlardan biri də Camal ağanın qismətinə düşmüşdü.

Ədəbiyyata o dərəcədə bağlı idi ki, evində ədəbi məclis təşkil etmişdi. Ədəbiyyatı və tariximizi bilənlər, el şairləri, ziyalılar bu məclisə toplaşır, şeirləşir, ədəbi müzakirələr aparırdılar. Şairlik istedadı olan, ədəbiyyatı yaxşı bilən şəxslərdən – Şahnigar xanım Rəncur, Salahlıdan Şəhla təxəllüslü Şəmsi bəy Vəkilov və İbrahim əfəndi Qayıbov, Barxudarlıdan Ağacıq oğlu Nəbi ağa, Daş Salahlıdan el şairləri Vəli ağa Alaybəyov və Mirzə Səməd Həsənov, Çaylı kəndindən şair və müəllim Hacıkərim Saniyev, Kəsəmənli İsrafil ağa Kərbəlayev və b. bu ədəbi məclisin daimi iştirakçıları idilər. Hətta bir dəfə pristav Şəfi bəyi, başqa bir dəfə pristav Həsənəli bəy Əsgərxanovu həcv etmək üçün öz aralarında müsabiqə elan edirlər. Bu müsabiqələrdə Camal ağanın həcvi qalib elan olunmuşdu [2, s. 5].

Maariflənmənin önəmini yaxşı dərk edən Camal ağa 1912-ci ildə Qazax şəhərində İsrafil ağa Kərbəlayevin mehmanxanasının bir otağında öz hesabına qiraətxana və kitabxana açır, buraya Bakıdan, Tiflisdən, Mərkəzi Rusiyadan, İstanbuldan çoxlu kitab, qəzet, jurnal gətirir. Qazağın bir çox ziyalılarının gəlib-getdikləri bu qiraətxanada hətta "Pravda" qəzeti də oxunurdu. 1918-ci ildə Qazax Müəllimlər Seminariyasının açılışı ilə bu tədris ocağının müəllimləri və tələbələri də buraya ayaq açmışdılar. Tez-tez qiraətxanaya gələn seminaristlərdən biri də sonralar şöhrətlənən Səməd Vəkilov (Vurğun) idi [2, s. 5; 4, s. 138].

Tarixçi Teymur ağa Miralayevin yazdığına görə, "Camal ağa demokratik və açıqfikirli mülkədar olmuşdur. Ona görə də Səməd ağa Ağamalıoğlu, "Molla", "Qarasaqqal" təxəllüslü Muxtar Hacıyev, Məmməd Kosayev, Məşədi Abbas Poladov kimi siyasət adamları bu qiraətxanaya gəlir, onunla açıq və gizli söhbətlər edirdilər [4, s. 138]. Camal ağa Dilbazovun açdığı bu maarif ocağı 1920-ci ilin aprel çevrilişinə qədər fəaliyyət göstərmişdi [2, s. 5; 4, s.138].

Arxiv sənədlərində Camal ağa Dilbazov 1917-1919-cu illərdə Qazax şəhər idarəsinin başçısı idi ("qorodskaya starosta") [4, s.138].

Bu illərdə siyasi görüşləri etibarilə Camal ağa rus çarizminin müstəmləkəçilik siyasətinin, velikorus şovinizminin əleyhdarı idi, nadel torpaqlarının, meşələrin, dövlət torpaqlarının kəndlilər arasında bölünməsi fikrini müdafiə edirdi. Teymur Miralayev onun 1918-ci ildə Qazax qəzasında yaradılmış "Müdafieyi-məzluman" solçu partiyasına rəğbət bəslədiyini, sonra Firudin bəy Köçərlinin sədrliyi ilə Qazaxda Müsavat Firqəsinin yerli təşkilatı yaradıldıqda, bir çox milli düşüncəli ziyalılar kimi, bu partiyaya üzv olmaqla istiqlal hərəkatına qoşulduğunu yazır. Əslində isə Camal ağa öz dini görüşləri etibarilə ittihadçı idi.

Qafqaz İslam Ordusunun komandanı əfsanəvi Nuru paşa 1918-ci ildə Qazağa gələndə onu qarşılayanlar arasında Camal ağa da vardı və bir şəhər başçısı olaraq bu münasibətlə atəşin nitq irad etmiş və paşanın şərəfinə ziyafətlər vermişdi.

**Ekspropriasiya və sürgün**

Sovetləşmə ilində əmlakının xeyli qismi müsadirə olunsa da, Qazaxda yaşayır, ədəbi və elmi yaradıcılığını davam etdirirdi. Yeni iqtisadi siyasət dövründə yenidən ticarətlə məşğul olmağa başlamış, 1920-ci ildəki müsadirədən sonra yenidən özünü düzəltmişdi. Tarixi faktlar əsasında çap üçün 3 cilddən ibarət kitab yazıb hazırlayır, bu cildlərə özünün 1880-ci illərdən, yəni gənc yaşlarından yazmağa başladığı əsərlərini daxil edir. Məlumatlara görə, bu cildlərdə müəllif 1801-ci ildən sonrakı dövrdə Qazax mahalında və ətrafında cərəyan etmiş tarixi hadisələri öz prizmasından qələmə almış, bütün dərinliyi ilə bələd olduğu sufizm və müridizm kimi dini-fəlsəfi cərəyanları bəlkə də ilk dəfə təhlil etmişdi və bu qiymətli əsərlərin çapı barədə düşünürdü [4, s.139].

Lakin tale öz hökmünü başqa cür verir. Gələcəyə böyük ümidlərlə baxan, həyatını dinc ticarətlə təmin edən bu alim və şair 1931-ci ildə "təmizləmə" kampaniyası başlananda "xalq düşməni, bəy, qolçomaq" siyahısına saınır [4, s.139].

Onun işinə məhkəmədən kənar qaydada - Azərbaycan SSR Gəncə Dairəsi ərazisində Fövqəladə Üçlüyün (troykanın) 25 mart 1931-ci il tarixli iclasında baxılaraq belə bir qərar çıxarılmışdır: "Camal ağa Dilbazov – 60 yaşında, türk, Azərbaycan vətəndaşı, Qazax şəhər sakini, keçmiş mülkədar, səs hüququndan məhrum edilib, Azərbaycan SSR CM 72-ci maddəsinin 2-ci hissəsi və 18/79-cu maddəsi ilə ittiham olunur, ailəsi isə birlikdə beş il müddətinə Qazaxıstana sürgün edilsin".

Onun evində axtarış aparılarkən çapa hazırladığı üç kitabından ikisi ələ keçir və çekistlər onu müəllifin gözü qarşısında buxarıda yanan ocağa atırlar. Xoşbəxtlikdən üçüncü kitab və vaxtilə onun evində qonaq qalmış istanbullu Xülusi əfəndinin kitabı xəstə yatan azyaşlı Sənəmin döşəyinin altında olduğundan salamat qalır. Yandırılan kitabların ikinci nüsxələri yox idi...

Camal ağa ailəliklə sürgünə müəyyən səbəblər üzündən bir il sonra – 1932-ci ilin əvvəllərində göndərilir. Onun "Qazaxdakı evi və əmlakı yenidən müsadirə edilir, 1932-ci ilin fevralında arvadı Zeynəb xanım və 4 yaşlı şikəst qızı Sənəmlə birlikdə Qazaxıstana sürgün edilir" [3]. Oğlu Cəlal ağa da sürgün edilir. Sürgün illəri çox üzüntülü, məşəqqətli keçmişdir. 15-20 ailə bir barakda sıxlaşıb yaşamağa məhkum idi. Bu ağır sürgün dövründə xəstə qızcığaz Sənəm tələf olur (8 yaşında idi) və onu sürgündəkilər səhrada böyük bir kədər və hüznlə torpağa tapşırırlar.

Camal ağa 1936-cı ilin sonlarında böyük bir hünər göstərir: ölümünü gözünün altına alaraq arvadı Zeynəb xanımı da götürüb, sürgün yerindən Bakıya qaçmağa müvəffəq olur.

Bakıda Bülbülə kəndində – burada müəllim işləyən oğlu Xülusinin evində bir neçə ay gizlin yaşasa da, əlində nə pasportu, nə sürgündən evə buraxılış kağızı var idi. Odur ki, gec-tez bu işə bir aydınlıq gətirməli idi [4, s.141]. Digər tərəfdən 1937-ci ilin martından başlayaraq, sürgündən qayıtmış olanları yenidən "yığmağa" başlamışdılar və bu dəfə ailəyə toxunmadan

təkcə ailə başçıları götürülür və onlardan bir daha soraq gəlmirdi. Bu yerdə onun 1918-ci ildən tanıdığı və dostlaşdığı Səməd Vurğunun məsləhəti köməyə gəlir. Camal ağa onun məsləhəti ilə o vaxt Ali Sovetin sədri olmuş Mirbəşir Qasımovun yanına gedir, Vətənə ölmək üçün qayıtdığını deyir: "Mən ölmək üçün qayıtmışam. Xahiş edirəm məni burada boğazlayıb öldürün, qoyun qanım Vətən torpağına tökülsün, amma bir də qürbətə göndərməyin" deyir. Yaşı səksəni haqlamış bu qocanın düşdüyü vəziyyətdən mütəəssir olan Mirbəşir Qasımov ona: "Get, Bülbülədə yaşa", – demişdir.

"Mirvarid xanım yazır ki, "bu faciəli sürgün həyatı onun bütün arzularını alt-üst etmişdi". Lakin ədəbi mühitə uyğunlaşmağa can atırdı. Teymur ağa Miralayev danışırdı ki, bir yerdə Səməd Vurğunun "Vaqif" pyesinin müzakirəsinə getmişdik" [3].

Şəhərdə yaşayış çətinləşmişdi, bir yandan da uzun müddət ayrı düşdüyü doğma el-oba çəkirdi onu özünə. Qocaldığını, dünyadan köçmək vaxtının yaxınlaşdığını görünür hiss edirmiş. 1942-ci ildə ailəliklə Bakıdan Gəncəyə gəldilər [4, s.142]. Burada oxuyan Hacı Dilbazi öz birotaqlı mənzilini onlara verib, özünə tələbə yataqxanasında yer düzəldir. Gəncədə də yaşayış çətin idi, odur ki, 1944-cü ilin payızında Camal ağa arvadı Zeynəb xanımı da götürüb Qazax şəhərinə gəlir [2, s. 8].

Əlindən alınmış evində indi rayon daxili işlər şöbəsinin rəisi yaşayırdı. Bu adam həmin evin balaca bir küncünü belə onun əzəli sahibinə verməkdən imtina edir. Bu evsiz-eşiksiz qoca bir vaxt böyüklük – ağsaqqallıq etdiyi doğma şəhərində bir daxma tapıb, burada kirayənişin yaşamağa məcbur qalır. 1945-ci ilin payızında Qazax şəhərində dünyasını dəyişir. Şəhərdə olan beş-üç qohum-əqrabası kişini vəsiyyətinə əsasən aparıb Köhnə Xanlıqlar kəndindəki qəbiristanlıqda, atası Hacırəhim ağa Vəhidinin məzarının yanında, Xülusi əfəndi İstanbulinin məzarı ilə yanaşı özü üçün müəyyən etmiş olduğu hissədə torpağa tapşırırlar [4, s. 142].

"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)". O, heç bir quluna çəkə bilməyəcəyi yükü yükləmir. Amma bununla bərabər istedadını son nöqtəsinə qədər istifadə etmək məsuliyyətini yükləyir. Hər bir insanın istedadı və gücü fərqli olduğu üçün onları qabiliyyətinə görə xor görmək və ya üstün tutmaq doğru deyildir. Allah Qurani-Kərimdə hər kəsi ancaq ona verdiyi bacarıqla məsul tutacağını buyurur [1, s. 29]. Bu baxımdan "dünyanın bir saatı axirətin min ilindən daha qiymətlidir. Çünki orada insanı qurtaracaq heç bir əməl işləmək mümkün deyil" [3, s. 32].

Camal ağa Dilbazi də üzərinə düşən mükəlləfiyyəti layiqincə yerinə yetirərək, bu məhsuldar və bərəkətli ömrünü Zati Mütləqə və bəndələrə xidmətkarlıqla başa vurdu.

**Nəticə**

*Düşüncə tərzi insanı digər məxluqatdan fərqləndirən başlıca qabiliyyət və Tanrının ona bəxş etdiyi misilsiz hədiyyədir. Bütün qələm sahibləri kimi Camal ağa Dilbazi də mənəviyyat dünyasının köməyi ilə daim həqiqət axtarışında olmuşdur. Həssas zümrə sahibi olan bu alim və şair yaşadığı cəmiyyətin çatışmazlıqlarını, sosial-iqtisadi durumunu, ictimai-siyasi fikrini əsərlərində əks etdirməkdən çəkinməmiş, daim mübarizə aparmışdır.*

*Sonda belə bir qənaətə gəlirik ki, əmlakının dəfələrlə müsadirə edilməsi, "təmizləmə" kampaniyasına məruz qalaraq "xalq düşməni, bəy, qolçomaq" adları ilə damğalanması, əsərlərinin yandırılması və ailəsi ilə bərabər Qazaxıstana sürgün edilməsi belə Camal ağanın ümidlərini qırmamış, onun həyat eşqini söndürməmişdir. Azərbaycan xalqının mənəvi sərvəti olan belə ziyalılar daim hörmətlə yad edilməli və əsərləri tədqiq edilərək ictimaiyyətin diqqətinə çatdırılmalıdır.*

**Ədəbiyyat siyahısı:**


1. Bizim Ailə. № 82 – Noyabr – Dekabr – 2021 – Qadın – Ailə jurnalı. – 44 səh.
2. Camal ağa Dilbazi (Giryan). Divani-Fəsahət. "Apostroff" MMC. Bakı: 2014, – 320 səh.
3. İrfan. Fevral (2021) № 171. İctimai fikir jurnalı, – 56 səh.
4. İsmayıl Umudlu. "Dilbazilər". Tarixi – bioqrafik araşdırma. Bakı: "Əbilov, Zeynalov və oğulları". Nəşriyyat – Poliqrafiya Evi, 2007. 392 səh.
5. "Mizanul-Hikmət" (xülasəsi). Peyğəmbər (s) və imamlar (ə)ın mübarək hədisləri, Toplayan: Ayətullah Məhəmməd Məhəmmədi Reyşəhri, Bakı, Nurlar, 2009, – 991 səh.
6. Poetik məclislər. Bakı: Yazıçı, 1987. 526 səh. Toplayanı və tərtib edəni: Nəsrəddin Qarayev.
7. 101 hədis. Tərtib və tərcümə edəni Qazi Hacı Sabir Həsənli. Bakı: Gənclik, 1990. – 32 səh.


**Sevinj Shahverdiyeva**
**View to the world of Jamal agha Dilbazi**


Jamal agha Dilbazi (1860-1945), one of the prominent representatives of the famous noble family of Dilbazi, is the third son of the poet Hajiragim agha, nicknamed Vakhidi, one of the nobles of the Khanlyk village of the Gazakh region.

Jamal agha (religious name Jamaleddin), who became a profoundly knowledgeable scientist, sufi poet and public figure of his time, received his first education from his father Hajiragim agha. The father was an enlightened man of that time, like other brothers, Jamal agha also learned Turkish, Arabic and Parsian from him. After his death, he began to read intensively and study one after another the works in the rich library left by his great-grandfathers and father. Jamal agha, who had a great passion for learning and gaining knowledge, studied at an educational center under the guidance of Mirhamza Nigari in Turkey (1889-1893), and upon returning to his native land, he tried to engage in education. From a young age, he was distinguished by a decisive, pure disposition and purposeful character. At the same time, Jamal agha wrote sufi poems and couplets in the style of folk poetry under the pseudonym "Giryan".

The article tells about the dramatic life of Jamal agha Dilbazi, his work, the repeated confiscation of his property and the hard days he spent in exile.


***Key words:*** *literary collection, poet, enemy of the people, expropriation, exile*

Filologiya elmləri doktoru, dosent
**Paşa Kərimov** tərəfindən çapa tovsiyə olunmuşdur.